# AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASININ QƏRARI

**№ 41**

**Bakı şəhəri** **“26” dekabr 2023-cü il**

**“Azərbaycan Respublikasına idxal olunan və Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallara dair fitosanitar norma və qaydalar”ın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikasının “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 20-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 2.0.3-cü, 3.0.2-ci, 4.0.1-ci yarımbəndlərini və 5.10 – 5.12-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra ismin müvafiq hallarında – Agentlik) Kollegiyası

**QƏRARA ALIR:**

**1.** “Azərbaycan Respublikasına idxal olunan və Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallara dair fitosanitar norma və qaydalar” təsdiq edilsin (*əlavə olunur*).

**2.** Agentliyin Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinə tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Agentliyin Kollegiyasının məsul katibi **Asif Əbdüləzimov** bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**4.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentliyin Kollegiyasının 2023-cü il 26 dekabr tarixli iclas protokolu.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikası**
**Qida Təhlükəsizliyi Agentliyinin sədri** **Qoşqar Təhməzli**

*Azərbaycan Respublikası Qida*
*Təhlükəsizliyi Agentliyinin Kollegiyasının*
*"26" dekabr 2023-cü il tarixli 41 nömrəli*
*Qərarı ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasına idxal olunan və Azərbaycan Respublikasının ərazisindəntranzit daşınan karantin nəzarətində olan materiallara dair fitosanitar norma və qaydalar**

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 3.1.3-cü və 13-cü maddələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısı", "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyanın VII maddəsi və həmin Konvensiyadan irəli gələrək təsdiq edilmiş Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartlar (12 nömrəli - "Fitosanitar Sertifikatlar", 15 nömrəli - "Beynəlxalq ticarətdə taxta qablaşdırma materiallarının tənzimlənməsi", 20 nömrəli - "İdxalın Fitosanitar Tənzimləməsi Sistemi üzrə Qaydalar") əsasında hazırlanmışdır.

**1.2.** Bu Qaydalar Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması məqsədini daşıyır və respublikanın ərazisinə idxal olunan və Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallara dair fitosanitar tələbləri müəyyənləşdirir.

## 2. Əsas anlayışlar

**2.1.** Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**2.1.1. zərərli orqanizmdən azad zona** – hər hansı bir zərərli orqanizmin olmamasının elmi əsaslandırıldığı və daimi nəzarətdə saxlanılan zona;

**2.1.2. zərərli orqanizmdən azad istehsal yeri** – hər hansı bir zərərli orqanizmin olmamasının elmi əsaslandırıldığı və rəsmi daimi nəzarətdə saxlanılan istehsal yeri;

**2.1.3. zərərli orqanizmdən azad istehsal sahəsi** – hər hansı bir zərərli orqanizmin olmamasının elmi əsaslandırıldığı və daimi nəzarətdə saxlanılan istehsal yerinin müəyyən bir hissəsi;

**2.1.4. tranzit daşınan yük** – açılmadan, bölünmədən, digər yüklərlə qarışdırılmadan, yenidən qablaşdırılmadan ölkə ərazisindən keçən və fitosanitar tədbirlərə məruz qala bilən yük;

**2.1.5. təkrar ixrac edilən yüklər** – ölkəyə idxal olunduqdan sonra oradan ixrac edilən yüklər;

**2.1.6. fitosanitar idxal tələbləri** – fitosanitar karantin nəzarətində olan yüklər üçün idxal edən ölkənin müəyyənləşdirdiyi xüsusi tələblər.

**2.1.7. karantin nəzarətində olan material** – zərərli orqanizmlərin məskunlaşmasına (gizlənməsinə) və yayılmasına şərait yaradan, fitosanitar tədbirlərin aparılmasını tələb edən (xüsusilə beynəlxalq yükdaşımalar zamanı) bitki və bitkiçilik məhsulları, onların saxlanma yeri, qablaşdırma materialı, nəqliyyat vasitələri, torpaq və hər hansı digər orqanizm, obyekt, yük;

**2.1.8. fumiqasiya** – bütöv yükün qaz halında təsir edən zəhərli kimyəvi maddələrlə işlənməsi;

**2.1.9. işlənmə** – zərərli orqanizmlərin məhvi, inaktivləşdirilməsi və ya təmizlənməsi, habelə sterilləşdirilməsi və devitalizasiyası üzrə rəsmi təsdiq edilmiş prosedur;

**2.1.10. əkin və səpin materialları** – əkin, səpin və yerini dəyişdirmək üçün nəzərdə tutulan və ya torpaqda əkilmiş olan bitkilər;

**2.1.11. taxta qablaşdırma materialları** – malın dəstəklənməsi, mühafizəsi və ya qablaşdırılması üçün istifadə edilən oduncaq (bərkidici oduncaq da daxil olmaqla) və ya oduncaq məmulatları (kağız məmulatları istisna olmaqla).

**2.2.** Bu Qaydada istifadə edilən digər anlayışlar "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və digər normativ hüquqi aktlarda müəyyən edilmiş mənaları ifadə edir.

## 3. Ümumi tələblər

**3.1.** Azərbaycan Respublikasının ərazisinə gətirilən karantin nəzarətində olan materiallar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısı"nda adları qeyd edilən orqanizmlərdən azad olmalı və bu qaydalara tabe tutulmalıdır.

**3.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 iyun tarixili 231 nömrəli Qərarı ilə təsdiq edilmiş "Baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid malların Vahid Siyahısı"nda qeyd edilən fitosanitar nəzarətinə aid olan mallar Azərbaycan Respublikasının ərazisinə idxal edilən zaman ixrac və ya təkrar ixrac edən ölkənin səlahiyyətli orqanı tərəfindən verilmiş fitosanitar sertifikat ilə müşayiət olunmalıdır.

**3.3.** İxrac və ya təkrar ixrac fitosanitar sertifikatları "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyadan irəli gələrək təsdiq edilmiş 12 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartının ("Fitosanitar Sertifikatlar") tələblərinə uyğun, ingilis və ya rus dilində olmalıdır.

**3.4.** Bu Qaydalara cavab verən yüksək fitosanitar riskli karantin nəzarətində olan məhsulların (kəsilmiş güllər, habelə seleksiya və elmi - tədqiqat məqsədləri üçün gətirilən əkin və səpin materialları da daxil olmaqla) əl yükləri, beynəlxalq poçt daşımaları və daşıyıcı şirkətlər vasitəsilə idxalına yalnız həmin məhsullar ixrac edən ölkənin Bitki Mühafizəsi üzrə

Milli Təşkilatı tərəfindən verilmiş ixrac fitosanitar sertifikatı ilə müşayiət edildiyi halda yol verilir.

**3.5.** Azərbaycan Respublikasına hər hansı bir ölkədən ilk dəfə idxal ediləcək yeni bitki və bitkiçilik məhsulları üzrə zərərli orqanizmlərin fitosanitar risk təhlilinin nəticələrinə dair müvafiq arayışı (hesabatı) ixrac edən ölkənin Bitki Mühafizəsi üzrə Milli Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə (bundan sonra-Agentlik) təqdim edilməli və dəyərləndirdikdən sonra daşıdığı risk məqbul olduğu halda idxalına icazə verilməlidir.

**3.6.** Azərbaycan Respublikası ərazisinə idxal edilmiş karantin nəzarətində olan yük partiyalarında karantin tətbiq edilən canlı zərərli orqanizmlər və ya digər uyğunsuzluqlar aşkar olunduqda, məhsulun tara ilə birlikdə fitosanitar nəzarəti məntəqələrində və ya təyinat yerlərində zərərsizləşdirilməsi, seçilməsi və ya yenidən qablaşdırılması, digər məqsədlə istifadəsi üçün emala göndərilməsi, bunlar mümkün olmadığı halda isə idxalçının istəyi nəzərə alınmaqla geri qaytarılması və ya tara ilə birlikdə məhv edilməsi barədə Agentlik tərəfindən müvafiq Qərar qəbul olunur.

Uyğunsuzluq aşkarlanmış karantin nəzarətində olan yük partiyasına münasibətdə həyata keçirilən tədbirlər hüquqi və fiziki şəxslərin (yük sahiblərinin) hesabına aparılır.

**3.7.** Azərbaycan Respublikasının ərazisinə gətirilən çox dövriyyəli taxta qablaşdırma materialları "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyadan irəli gələrək təsdiq edilmiş 15 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartına ("Beynəlxalq ticarətdə taxta qablaşdırma materiallarının tənzimlənməsi") uyğun olaraq aşağıdakı tələblərə cavab verməlidir:

**3.7.1.** taxta qablaşdırma materialları istiliklə işlənmiş və ya fumiqasiya edilmiş olmalıdır;

**3.7.2.** "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyanın loqosundan və 3 koddan (ölkə, istehsalçı və tətbiq edilmiş üsul) ibarət 15 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartında göstərilmiş formaya uyğun möhürlə rəsmi markalanmalıdır. Marka oxunaqlı olmalı və əl ilə çəkilməməlidir;

**3.7.3.** qabığı soyulmuş ağacdan hazırlanmalı və üzərində eni 3 sm-dən və ümumi sahəsi 50 $sm^2$-dən böyük qabıq parçaları olmamalıdır.

**3.8.** Bu Qaydanın 3.7-ci bəndində qeyd edilmiş tələblər aşağıdakılara şamil edilmir:

**3.8.1.** qalınlığı 6 mm və daha az olan ağacdan hazırlanmış taxta qablaşdırma materiallarına;

**3.8.2.** spirtli içkilər üçün nəzərdə tutulmuş və termiki emaldan keçmiş çəlləklər, hədiyyə üçün qutular, taxta yonqar və taxta yun, yük maşınlarına və konteynerlərə qalıcı (daimi) olaraq bərkidilən taxta komponentləri, hazırlanması zamanı kimyəvi maddələrdən və digər emal üsullarından istifadə edilməklə hazırlanmış fanera, DSP, DVP və bu kimi materiallara.

**3.9.** Şam gövdə nematodunun (*Bursaphelenchus xylophilus*), Asiya və Çin uzunbığ böcəklərinin (*Anoplophora glabripennis* və *Anoplophora chinensis*) yayıldığı ölkələrdən gətirilən

ağac qablaşdırma materialları markalanmış olduqda, o cümlədən sirayətlənmə əlamətləri müşahidə edildikdə, fitosanitar ekspertizaya cəlb olunmalıdır.

**3.10.** Qablaşdırma materialı kimi karantin tətbiq edilən zərərli orqanizmlərin daşıyıcısı ola bilən ot-alaf, küləş, ağac yonqarı, yarpaq və oxşar bitki mənşəli materiallardan istifadə olunması qadağandır.

**3.11.** Fitosanitar karantin ekspertizasının aparılması üçün nümunə götürülmüş fitosanitar nəzarətinə aid olan mallar yalnız ekspertiza rəyinin nəticələri müsbət olduğu halda istifadə edilə bilər. Ekspertiza başa çatana qədər məhsul ilkin qablaşdırma materialında və zərərli orqanizmlərin yayılması istisna ediləcək şəraitdə, digər yerlərə daşımamaq və realizə etməmək şərti ilə gömrük orqanları ilə razılaşdırmaqla fitosanitar nəzarəti məntəqələrində, yaxud idxalatçıya məxsus və ya onun icarəsində olan digər anbarda saxlanıla bilər.

**3.12.** Karantin tətbiq edilən canlı zərərli orqanizmlər Azərbaycan Respublikasının ərazisinə yalnız elmi-tədqiqat məqsədləri üçün və risk qiymətləndirilməsi həyata keçirildikdən və nəticələri məqbul hesab edildikdən sonra gətirilə bilər.

**3.13.** Azərbaycan Respublikasının ərazisinə idxal olunan qablaşdırılmış əkin və səpin materialları üzərində məhsulun adı, mənşə ölkəsi, istehsal yeri, istehsalçısı, genetik modifikasiyaya məruz qalmaması haqqında məlumatlar digər dillərlə yanaşı Azərbaycan dilində də olmalıdır. Həmçinin, kimyəvi və bioloji preparatlarla işlənilmiş kənd təsərrüfatı məhsullarının taraları üzərində müvafiq xəbərdarlıq yazılarının və nişanlarının olması təmin edilməlidir.

Kimyəvi və ya bioloji preparatlarla dərmanlanmış (işlənmiş) toxumlar mütləq qablaşdırılmalı, açıq şəkildə daşınmamalıdır.

**3.14.** Azərbaycan Respublikası ərazisindən tranzit daşınan karantin nəzarətində olan məhsullar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisindən tranzit daşınan karantin nəzarətində olan materiallar üzərində fitosanitar nəzarətin həyata keçirilməsi" Qaydası ilə tənzimlənir.

**3.15.** Meşə materialları (taxta) hər il üçün aprel ayının 1-dən oktyabr ayının 31-nə kimi ölkə ərazisindən tranzit daşındığı zaman qapalı nəqliyyat vasitələrində, konteynerlərdə və ya üzəri örtülməklə daşınmalıdır.

## 4. Əkin və səpin materiallarına qoyulan fitosanitar karantin tələbləri

**4.1.** Əkin (şitil, çilik, ting, soğanaq, kökyumruları və digərləri) və səpin (toxum) materialları karantin tətbiq edilən zərərli orqanizmlərdən, o cümlədən karantin alaq otlarından olan çoxillik ambroziya (*Ambrosia psilostachya*), yovşanyarpaqlı ambroziya (*Ambrosia artemisiifolia*), üçdilimli ambroziya (*Ambrosia trifida*), tumurcuqlu kəndalaş (*Iva axillaris*), sürünən kəkrə (çəhrayı) (*Acroptilon repens*), karolina quşüzümü (*Solanum carolinense*), üççiçəkli quşüzümü (*Solanum triflorum*), zolaqyarpaqlı quşüzümü (*Solanum elaeagnifolium*), tükcüklü pişikdili (*Bidens pilosa*), çuxurlu ipomeya (*Ipomoea lacunosa*), tikanlı

quşüzümü (*Solanum rostratum*), azçiçəkli senxrus (lövbərli) (*Cenchrus spinifex*) və uzuntikanlı senxurus (*Cenchrus longispinus* ) toxumlarından azad olmalıdır.

**4.2.** Əkin və səpin materialları üçün xüsusi fitosanitar karantin tələbləri cədvəl 1-də qeyd edilmişdir.

**Cədvəl 1**

**Əkin və səpin materialları üçün xüsusi fitosanitar karantin tələbləri**

| № | Karantin nəzarətində olan malın növü (XİF MN üzrə kodla) | Xüsusi fitosanitar karantin tələbləri |
|---|---|---|
| **Əkin və səpin materialları** | | |
| **1** | Dənli bitkilərin toxumları<br><br>1001 11 000 0<br>1001 91 100 0<br>1001 91 200 0<br>1001 91 900 0<br>1002 10 000 0<br>1003 10 000 0<br>1004 10 000 0<br>1005 10 130 0<br>1005 10 150 0<br>1005 10 180 0<br>1005 10 900 0<br>1006 10 100 1<br>1006 10 100 9<br>1007 10 100 0<br>1007 10 900 0<br>1008 10 000 0-dan<br>1008 21 000 0<br>1008 30 000 0-dan<br>1008 40 000 0-dan<br>1008 50 000 0-dan<br>1008 60 000 0-dan<br>1008 90 000 0-dan | Toxum, tara, qablaşdırma və nəqliyyat vasitəsi karantin tətbiq edilən zərərli orqanizmlərdən, o cümlədən bu tələblərin 4.1-ci bəndində qeyd olunmuş alaq toxumlarından, kapr böcəyi (*Trogoderma granarium*), Kallosobruxus cinsindən dənyeyənlər (*Callosobruchus spp.*), enlixortumlu düyü uzunburunu (*Caulophilus latinasus*) və Braziliya dənyeyənindən (*Zabrotes subfasciatus*) azad olmalıdır. |
| **2** | Buğda (*Triticum spp.*) və Tritikale (x *Triticosecale*) toxumları<br><br>1001 11 000 0<br>1001 91 100 0<br>1001 91 200 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə buğda nematodu (*Anguina tritici*), buğdanın bakterial yanığı (*Xanthomonas translucens pv. translucens*) və Hindistan sürməsindən (*Tilletia indica*) azad olmalıdır. |

| | | |
|---|---|---|
| | 1001 91 900 0<br>1008 60 000 0-dan | Məhsulun Hindistan sürməsinin (*Tilletia indica*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br>1) "Məhsul Hindistan sürməsindən (*Tilletia indica*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir."<br>və ya<br>2) "Məhsul Hindistan sürməsinə (*Tilletia indica*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır." |
| **3** | Çovdar (*Secale L.)* toxumları<br><br>1002 10 000 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə Hindistan sürməsindən (*Tilletia indica*) azad olmalıdır.<br><br>Məhsulun Hindistan sürməsinin (*Tilletia indica*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br><br>1) "Məhsul Hindistan sürməsindən (*Tilletia indica*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir."<br>və ya<br>2) "Məhsul Hindistan sürməsinə (*Tilletia indica*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır." |
| **4** | Arpa (*Hordeum vulgare*) toxumları<br><br>1003 10 000 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə arpanın zolaqlı mozaika virusundan (*Barley stripe mosaic virus*) azad olmalıdır. |
| **5** | Yulaf (*Avena sativa*) toxumları<br><br>1004 10 000 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə toxumlar buğda nematodundan (*Anguina tritici*) azad olmalıdır. |
| **6** | Qarğıdalı (*Zea mays*) toxumları<br><br>1005 10 130 0<br>1005 10 150 0<br>1005 10 180 0<br>1005 10 900 0<br>0712 90 110 1 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə qarğıdalının bakterial soluxması (*Erwinia stewartii),* qarğıdalı yarpaqlarının ləkəliliyi (*Cochliobolus carbonum*), qarğıdalıda diplodioz (*Stenocarpella macrospora* və *Stenocarpella maydis*) və qarğıdalıda cənub |

| | | |
|---|---|---|
| | 0712 90 110 9 | helmintosporiozundan *(Bipolaris maydis)* azad olmalıdır.<br>Məhsulun qarğıdalının bakterial soluxmasının (*Erwinia stewartii)* rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br>1) "Məhsul qarğıdalının bakterial soluxmasından (*Erwinia stewartii)* azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir."<br>və ya<br>2) "Məhsul qarğıdalının bakterial soluxmasına *(Erwinia stewartii)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır." |
| **7** | Çəltik (*Oryza spp.*) toxumları<br><br>1006 10 100 1<br>1006 10 100 9 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə çəltik nematodu (*Aphelenchoides besseyi*), çəltikdə bakterial yanıqlıq (*Xanthomonas oryzae pv. oryzae*) və çəltiyin bakterial zolaqlılığından (*Xanthomonas oryzae pv. oryzicola*) azad olmalıdır. |
| **8** | Qarabaşaq (*Fagopyrum esculentum*) toxumları<br><br>1008 10 000 0-dan | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə zərərli orqanizmlərdən azad olmalıdır. |
| **9** | Soya (*Glycine max*) toxumları<br>1201 10 000 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə bənövşəyi serkosporozdan (*Cercospora kikuchii*) azad olmalıdır. |
| **10** | Noxud (*Pisum sativum*) toxumları<br><br>0713 10 100 1<br>0713 10 100 9 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə noxudun bakterial yanıqlığından (*Pseudomonas syringae pv. pisi*) azad olmalıdır. |
| **11** | Lobya (*Phaseolus vulgaris*) toxumları<br><br>0713 33 100 1<br>0713 33 100 9 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə lobyada bakterial yanıqlıqdan (*Xanthomonas axonopodis* pv. *phaseoli*) azad olmalıdır.<br>Məhsulun lobyanın bakterial yanıqlığının (*Xanthomonas axonopodis* pv. *phaseoli*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır: |

| | | |
|---|---|---|
| | | 1) “Məhsul lobyada bakterial yanıqlıqdan (*Xanthomonas axonopodis* pv. *phaseoli))* azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir.”<br><br>və ya<br><br>2) “Məhsul lobyanın bakterial yanıqlığına (*Xanthomonas axonopodis* pv. *phaseoli)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır.” |
| **12** | Yerfındığı-araxis (*Arachis hypogaea*) toxumları<br><br>1202 30 000 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə kartofun qonur çürüməsindən (*Ralstonia solanacearum*) azad olmalıdır. |
| **13** | Günəbaxan (*Helianthus spp.*) toxumları<br><br>1206 00 100 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə günəbaxanın yalançı unlu şehi (*Plasmopara halstedii*) və günəbaxanda fomopsisdən (*Diaporthe (Phomopsis) helianthi*) azad olmalıdır.<br>Məhsulun günəbaxanın yalançı unlu şehinin (*Plasmopara halstedii*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br>1) “Məhsul günəbaxanın yalançı unlu şehindən (*Plasmopara halstedii*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir.”<br><br>və ya<br><br>2) “Məhsul günəbaxanın yalançı unlu şehinə (*Plasmopara halstedii*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır.” |
| **14** | Pambıq (*Gossypium spp.*) toxumları<br><br>1207 21 000 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə pambığın antroknozu (*Glomerella gossypii*) və şərq pambıq uzunburunundan (*Anthonomus grandis*) azad olmalıdır.<br>Məhsul toxumun səthi üzərində daşına bilən zərərli orqanizmlərə qarşı qəbul edilmiş beynəlxalq müvafiq metodlarla işlənməlidir. |

| | | |
|---|---|---|
| | | Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Məhsul pambığın antroknozuna (*Glomerella gossypii)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır." |
| **15** | Balqabaqkimilərin (*Cucurbitaceae*) toxumları<br><br>1207 70 000 0<br>1207 99 960 0-dan<br>1209 91 800 0-dan | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə balqabağın bakterial ləkəliliyindən (*Acidovorax citrulli*) azad olmalıdır. |
| **16** | Yonca (*Medicago sativa*) toxumları<br><br>1209 21 000 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə gövdə nematodu (*Ditylenchus dipsaci*) və yoncanın bakterial yanıqlığından (*Clavibacter insidiosus*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Məhsul gövdə nematoduna (*Ditylenchus dipsaci*) və yoncanın bakterial yanıqlığına (*Clavibacter insidiosus*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır." |
| **17** | Şəkər çuğundurunun (*Beta vulgaris*) toxumları<br>1209 10 000 0<br>1209 91 300 0 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə çuğundur damarlarının nekrotik saralma virusundan (*Beet necrotic yellow vein benyvirus*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Məhsul çuğundur damarlarının nekrotik saralma virusuna (*Beet necrotic yellow vein benyvirus*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır." |
| **18** | Badımcançiçəklilər fəsiləsinə aid olan bitkilərin toxumları (tütün, badımcan və s.), kartofun (*Solanum tuberosum*) əsl toxumlarından başqa<br><br>1209 91 800 0-dan<br>1209 99 990 1 | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə və karantin tətbiq edilən bütün növ alaq bitkilərinin toxum və meyvələrindən azad olmalıdır. |
| **19** | Bibər (*Capsicum spp.*) toxumları<br><br>1209 91 800 0-dan | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə kartofun milşəkilliliyi viroidi (*Potato spindle tuber viroid*) və pomidor |

| | | |
|---|---|---|
| 20 | | meyvələrinin qonur qırışıqlıq virusundan (*Tomato brown rugose fruit virus*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Məhsul kartofun milşəkilliliyi viroidinə (*Potato spindle tuber viroid*) və pomidor meyvələrinin qonur qırışıqlıq virusuna *(Tomato brown rugose fruit virus)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır." |
| **20** | Pomidor (*Solanum lycopersicum*) toxumları<br><br>1209 91 800 0-dan | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə kartof yumrularının milşəkilliliyi viroidi (*Potato spindle tuber viroid*), pomidor meyvələrinin qonur qırışıqlıq virusu (*Tomato brown rugose fruit virus*), pepino mozaika virusu (*Pepino mosaic virus*) və pomidorun xərçəngindən (*Clavibacter michiganensis subsp.michiganensis)* azad olmalıdır.<br>Məhsul toxumun səthi üzərində daşına bilən zərərli orqanizmlərə qarşı qəbul edilmiş beynəlxalq müvafiq metodlarla işlənməlidir.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Məhsul kartof yumrularının milşəkilliliyi viroidinə (*Potato spindle tuber viroid*), pomidor meyvələrinin qonur qırışıqlıq virusuna (*Tomato brown rugose fruit virus),* pepino mozaika virusuna (*Pepino mosaic virus)* və pomidorun xərçənginə (*Clavibacter michiganensis subsp.michiganensis)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır." |
| **21** | Soğan növlərinin (*Allium spp.*) toxumları<br><br>1209 30 000 0-dan<br>1209 91 800 0-dan | Bu cədvəlin 1-ci hissəsinin tələbləri gözlənilməklə gövdə nematodu (*Ditylenchus dipsaci*) və soğanın bakterial yanıqlığından (*Xanthomonas axonopodis* pv. *allii)* azad olmalıdır. |
| | | **Toxumluq kartof** |
| **22** | Kartofun (*Solanum tuberosum*) sınaq şüşələrində mikrobitkilər də daxil olmaqla toxumları və mikroyumruları | Kartof yumrularının milşəkilliliyi viroidi (*Potato spindle tuber viroid*), kartofun And latent virusu (*Andean potato latent tymovirus*), pomidorun bürünclük virusu (*Tomato spotted wilt virus*), xınagülünün ləkəli nekroz virusu (*Impatiens* |

| | | |
|---|---|---|
| | 0602 90 500 0-dan<br>1209 91 800 0-dan | *necrotic spot virus*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*) və zebra çipdən (*Candidatus liberibacter solanacearum*) azad olmalıdır. |
| **23** | Toxumluq kartof yumruları (mikrobitkilər və mikrokökyumruları istisna olmaqla)<br><br>0701 10 000 1<br>0701 10 000 9 | Qvatemala kartof güvəsi (*Tecia solanivora*), kartof torpaq birəböcəyi (*Epitrix cucumeris*), kök yumrusu birəböcəyi (*Epitrix tuberis*), kartof güvəsi (*Phthorimaea operculella*), kartofun And latent virusu (*Potato Andean latent tymovirus*), kartofda qanqrena (*Phoma foveata*), kartofun and uzunburunu (*Premnotrypes spp.),* gövdə nematodu (*Ditylenchus dipsaci*), kartof gövdə nematodu (*Ditylenchus destructor*), solğun kartof nematodu (*Globodera pallida*), qızılı kartof nematodu (*Globodera rostochiensis*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), kartof yumrularında halqavari bakterial çürümə (*Clavibacter michiganensis subsp. sepedonicus*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), kartof yumrularının milşəkilliliyi viroidi (*Potato spindle tuber viroid*), zebra çip (*Candidatus liberibacter solanacearum*), pomidorun bürünclülük virusu (*Tomato spotted wilt virus),* kartofun xərçəngi (*Synchytrium endobioticum*) və kartof sürməsindən (*Thecaphora solani*) azad olmalıdır.<br><br>Məhsulun kartofun qonur çürüməsinin (*Ralstonia solanacearum*), kartofun xərçəngi (*Synchytrium endobioticum*) və kartof yumrularında halqavari bakterial çürümənin (*Clavibacter michiganensis subsp. sepedonicus*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>“Məhsul kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), kartofun xərçəngi (*Synchytrium endobioticum*) və kartof yumrularında halqavari bakterial çürümədən (*Clavibacter michiganensis* |

| | | |
|---|---|---|
| | | *subsp. sepedonicus)* azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir."<br>Fitosanitar sertifikatın mənşə yeri bölümündə məhsulun istehsal yeri ilə yanaşı istehsalçısının adı da qeyd edilməlidir.<br>Toxumluq kartof üzərində torpaq qalıntısı məhsulun faktiki çəkisinin 1%-dən çox olmamalıdır. Ərazisində torpaqla yayıla bilən kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*) və qızılı kartof nematodu (*Globodera rostochiensis*) rast gəlinən ölkələrdən idxal edilən toxumluq kartof yumrularının üzərində torpaq qalıntısı məhsulun faktiki çəkisinin 0,1%-dən çox olmamalıdır.<br>Qida, yem və texniki məqsədlər üçün nəzərdə tutulmuş kartof toxumluq kartof kimi bəyan edilməməlidir. |
| **Meyvə bitkilərinin tingləri, calaqaltıları və çilikləri** | | |
| **24** | Çəyirdəkli, tumlu və qərzəkli bitkilərin tingləri və calaqaltıları, o cümlədən dekorativ formaları (köklü)<br><br>0602 20 200 1<br>0602 20 200 9 | Şərq meyvəyeyəni (*Grapholita molesta*), şaftalı meyvəyeyəni (*Carposina sasakii*), alma milçəyi (*Rhagoletis pomonella*), şərq meyvə milçəyi (*Bactrocera dorsalis*), Yaponiya böcəyi (*Popillia japonica*), meyvə uzunburunu (*Conotrachelus nenuphar*), Avstraliya şırımlı yastıcası (*Icerya purchasi*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*), Komstok yastıcası (*Pseudococcus comstocki*), Çin uzunbığ böcəyi (*Anoplophora chinensis*), Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*), Yaponiya çöpvari qalxanlı yastıcası (*Lopholeucaspis japonica*), Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*), əncir mumlu yalançı qalxanlı yastıcası (*Ceroplastes rusci*), alma qızılböcəyi (*Agrilus mali*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), şərq albalı milçəyi (*Rhagoletis cingulata*), Yaponiya yalançı qalxanlı mumlu yastıcası (*Ceroplastes japonicus*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), meyvə ağaclarının yanığı (*Erwinia amylovora*), şabalıdda gövdə yanığı (*Cryphonectria parasitica*), kök xərçəngi |

| | | |
|---|---|---|
| | | (*Agrobacterium tumefaciens*), çəyirdəklilərin bakterial ləkəliliyi (*Xanthomonas arboricola pv.pruni*), üzümün bakteriozu və ya Pirs xəstəliyi (*Xylella fastidiosa*), tütünün həlqəvi ləkəlik virusu (*Tobacco ringspot virus*), pomidorun halqavari ləkəlik virusu (*Tomato ringspot virus*), albalı yarpaqlarının qıvrılması virusu (*Cherry leaf roll virus*) və qonur monilioz çürümədən (*Monilinia fructicola*) azad olmalıdır.<br>Əkin materiallarının üzümün bakteriozu və ya Pirs xəstəliyi (*Xylella fastidiosa),* albalı yarpaqlarının qıvrılması virusu (*Cherry leaf roll virus*) və qonur monilioz çürümənin (*Monilinia fructicola*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br><br>1) "Əkin materialları üzümün bakteriozu və ya Pirs xəstəliyi (*Xylella fastidiosa*), albalı yarpaqlarının qıvrılması virusu (*Cherry leaf roll virus*) və qonur monilioz çürümədən (*Monilinia fructicola*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir."<br><br>və ya<br><br>2) "Üzümün bakteriozu və ya Pirs xəstəliyinə (*Xylella fastidiosa*), albalı yarpaqlarının qıvrılması virusuna (*Cherry leaf roll virus*) və qonur monilioz çürüməyə (*Monilinia fructicola*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır." |
| **25** | Çəyirdəkli, tumlu və qərzəkli bitkilərin çilikləri, o cümlədən dekorativ formaları (köksüz)<br><br>0602 10 900 0<br>0602 20 800 9 | Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*), Avstraliya şırımlı yastıcası (*Icerya purchasi*), şərq meyvəyeyəni (*Grapholita molesta*), əncir mumlu yalançı qalxanlı yastıcası (*Ceroplastes rusci),* Yaponiya yalançı qalxanlı mumlu yastıcası (*Ceroplastes japonicus*), meyvə uzunburunu (*Conotrachelus nenuphar*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*), Çin uzunbığ böcəyi (*Anoplophora chinensis*), Kaliforniya qalxanlı |

| | | |
|---|---|---|
| | | yastıcası (*Quadraspidiotus perniciosus*), Yaponiya çöpvari qalxanlı yastıcası (*Lopholeucaspis japonica*), qırmızı boyunlu uzunbığ böcəyi (*Aromia bungii*), Komstok yastıcası (*Pseudococcus comstocki*), qonur monilioz çürümə *(Monilinia fructicola*), meyvə ağaclarının yanığı (*Erwinia amylovora*), alma fitoplazması (*Candidatus phytoplasma mali*) və şabalıdda gövdə yanığından (*Cryphonectria parasitica*) azad olmalıdır. |
| **26** | Malus cinsindən olan bitkilərin tingləri, calaqaltıları və çiliklər<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə qonur monilioz çürümə *(Monilinia fructicola*), meyvə ağaclarının yanığı (*Erwinia amylovora*), kök xərçəngi (*Agrobacterium tumefaciens*), alma fitoplazması (*Candidatus phytoplasma mali*) və alma qızılböcəyindən (*Agrilus mali*) azad olmalıdır.<br>Əkin materialları qonur monilioz çürümə *(Monilinia fructicola*), meyvə ağaclarının yanığı (*Erwinia amylovora*) və alma fitoplazmasının (*Candidatus phytoplasma mali*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Əkin materialları qonur monilioz çürümə *(Monilinia fructicola*), meyvə ağaclarının yanığı (*Erwinia amylovora*) və alma fitoplazmasından (*Candidatus phytoplasma mali*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir." |
| **27** | Armud (*Pyrus*), heyva (*Cydonia*) cinsinə aid bitkilərin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə armud odlucası (*Numonia pyrivorella*), kök xərçəngi (*Agrobacterium tumefaciens*), qonur monilioz çürümə *(Monilinia fructicola),* meyvə ağaclarının yanığı (*Erwinia amylovora*) və armudun zəiflik fitoplazmasından (*Candidatus phytoplasma pyri*) azad olmalıdır.<br>Əkin materiallarının qonur monilioz çürümə *(Monilinia fructicola),* meyvə ağaclarının yanığı (*Erwinia amylovora*) və armudun zəiflik fitoplazmasının (*Candidatus phytoplasma pyri*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır: |

| | | |
|---|---|---|
| | | 1) “Əkin materialları qonur monilioz çürümə *(Monilinia fructicola),* meyvə ağaclarının yanığı (*Erwinia amylovora*) və armudun zəiflik fitoplazmasından (*Candidatus phytoplasma pyri*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir.”<br>və ya<br>2) “İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində qonur monilioz çürümənin *(Monilinia fructicola),* meyvə ağaclarının yanığının (*Erwinia amylovora*) və armudun zəiflik fitoplazmasının (C*andidatus phytoplasma pyri*) əlamətləri müşahidə edilməmişdir.” |
| **28** | Prunus cinsindən olan bitkilərin tingləri, xüsusilə də meşə albalısı (*Prunus mahaleb*) və gilas (*Prunus avium*) bitkilərinin tingləri, calaqaltıları və çilikləri, o cümlədən dekorativ formaları<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə qonur monilioz çürümə *(Monilinia fructicola*), çəyirdəklilərin bakterial ləkəliliyi (*Xanthomonas arboricola pv.pruni*), kök xərçəngi (*Agrobacterium tumefaciens*), üzümün bakteriozu və ya Pirs xəstəliyi (*Xylella fastidiosa*), şarka virusu (*Plum pox virus*) və albalı yarpaqlarının törpüşəkilliyi virusundan (*Cherry rasp leaf virus*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br><br>1) “Əkin materialları qonur monilioz çürüməyə *(Monilinia fructicola*), çəyirdəklilərin bakterial ləkəliliyinə (*Xanthomonas arboricola pv.pruni*), üzümün bakteriozu və ya Pirs xəstəliyinə (*Xylella fastidiosa*), şarka virusuna (*Plum pox virus*) və albalı yarpaqlarının törpüşəkilliyi virusuna (*Cherry rasp leaf virus*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır.”<br>və ya<br><br>2) “İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində qonur monilioz çürümənin *(Monilinia fructicola*), çəyirdəklilərin bakterial ləkəliliyinin (*Xanthomonas arboricola pv.pruni*), üzümün bakteriozu və ya Pirs |

| | | |
|---|---|---|
| | | xəstəliyinin (*Xylella fastidiosa*), şarka virusunun (*Plum pox virus*) və albalı yarpaqlarının törpüşəkilliyi virusunun (*Cherry rasp leaf virus*) əlamətləri müşahidə edilməmişdir.” |
| **29** | Şaftalı (*Prunus persica*) və badam (*Prunus dulcis*) bitkilərinin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə şarka virusu (*Plum pox virus*), qonur monilioz çürümə *(Monilinia fructicola*), kök xərçəngi (*Agrobacterium tumefaciens*), çəyirdəklilərin bakterial ləkəliliyi (*Xanthomonas arboricola pv.pruni*), badamın “cadugər süpürgəsi” (*Candidatus Phytoplasma phoenicium*), üzümün bakteriozu və ya Pirs xəstəliyi (*Xylella fastidiosa*) və şaftalının latent mozaika virusundan (*Peach latent mosaic viroid*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br>1) “Əkin materialları çəyirdəklilərin bakterial ləkəliliyinə (*Xanthomonas arboricola pv.pruni*), badamın “cadugər süpürgəsi”nə (*Candidatus Phytoplasma phoenicium*), üzümün bakteriozu və ya Pirs xəstəliyinə (*Xylella fastidiosa*) və şarka virusuna *(Plum pox virus)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır.”<br>və ya<br><br>2) “İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində çəyirdəklilərin bakterial ləkəliliyinin (*Xanthomonas arboricola pv.pruni*), badamın “cadugər süpürgəsi”nin (*Candidatus Phytoplasma phoenicium*), üzümün bakteriozu və ya Pirs xəstəliyinin (*Xylella fastidiosa*) və şarka virusunun *(Plum pox virus)* əlamətləri müşahidə edilməmişdir”. |
| **30** | Gavalı (*Prunus domestica*) və ərik (*Prunus armeniaca*) bitkilərin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə qonur monilioz çürümə *(Monilinia fructicola*), çəyirdəklilərin bakterial ləkəliliyi (*Xanthomonas arboricola pv.pruni*), kök xərçəngi (*Agrobacterium tumefaciens*), üzümün bakteriozu |

| | | |
|---|---|---|
| | 0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | və ya Pirs xəstəliyi (*Xylella fastidiosa*) və şarka virusundan *(Plum pox virus)* azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br>1) "Əkin materialları qonur monilioz çürüməyə *(Monilinia fructicola*), çəyirdəklilərin bakterial ləkəliliyinə (*Xanthomonas arboricola pv.pruni*), üzümün bakteriozu və ya Pirs xəstəliyinə (*Xylella fastidiosa*) və şarka virusuna *(Plum pox virus)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır."<br>və ya<br><br>2) "İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində qonur monilioz çürümənin *(Monilinia fructicola*), çəyirdəklilərin bakterial ləkəliliyinin (*Xanthomonas arboricola pv.pruni*), üzümün bakteriozu və ya Pirs xəstəliyinin (*Xylella fastidiosa*) və şarka virusunun *(Plum pox virus)* əlamətləri müşahidə edilməmişdir". |
| **31** | Çəyirdəkli bitkilərin müxtəlif hibridləri (*Prunus myrobalan-peach hybrids* daxil olmaqla)<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə gavalının fitoplazması *(Candidatus phytoplasma prunorum),* qonur monilioz çürümə *(Monilinia fructicola),* şarka virusu *(Plum pox virus),* pomidorun halqavari ləkəlik virusu (*Tomato ringspot virus*), Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*) və şərq meyvəyeyənindən *(Grapholita molesta)* azad olmalıdır. |
| **32** | Zeytun (*Olea europaea*) bitkilərinin tingləri<br><br>0602 20 200 1-dən<br>0602 20 800 1-dən | Bu cədvəlin 25-ci hissəsinin tələbləri gözlənilməklə zeytunun yalançı qalxanlı yastıcası (*Saissetia oleae*), əncir mumlu yalançı qalxanlı yastıcası (*Ceroplastes rusci*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*), üzümün bakteriozu və ya Pirs xəstəliyi (*Xylella fastidiosa*) və nizəşəkilli nematoddan *(Xiphinema rivesi*) azad olmalıdır.<br>Əkin materiallarının üzümün bakteriozu və ya Pirs xəstəliyinin (*Xylella fastidiosa*) rast gəlindiyi |

| | | |
|---|---|---|
| | | ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br>1) "Əkin materialları üzümün bakteriozu və ya Pirs xəstəliyindən (*Xylella fastidiosa*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir".<br>və ya<br>2) "Əkin materialları üzümün bakteriozuna və ya Pirs xəstəliyinə (*Xylella fastidiosa*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır." |
| **33** | Yunan qozu və digər qoz (*Juglans*) növlərinin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə kök xərçəngi (*Agrobacterium tumefaciens*) və qozun bakterial ləkəliliyi *(Xanthomonas arboricola pv. juglandis)* xəstəliyindən azad olmalıdır. |
| **34** | Pekan (*Carya illinoinensis*) tingləri, calaqaltıları və çilikləri<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan | Bu cədvəlin 24-cü hissəsinin tələbləri gözlənilməklə Texas kök çürüməsindən (*Phymatotrichopsis omnivora*) azad olmalıdır. |
| **Giləmeyvə bitkilərinin tingləri, calaqaltıları və çilikləri** | | |
| **35** | Giləmeyvə bitkilərinin (moruq (*Rubus idaeus*), böyürtkən (*Rubus spp.*), qarağat (*Ribes nigrum*), *qaragilə (Vaccinium spp.),* kivi *(Actinidia deliciosa)*) tingləri, calaqaltıları (köklü)<br><br>0602 20 200 1-dən<br>0602 20 200 9-dan | Qərb çiçək tripsi (*Frankliniella occidentalis*), Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*), qara sitrus ağqanadlısı (*Aleurocanthus woglumi*), alma milçəyi (*Rhagoletis pomonella*), Texas kök çürüməsi (*Phymatotrichopsis omnivora*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), moruğun halqavari ləkəlilik nepovirusu (*Raspberry ringspot nepovirus*), tütünün halqavari ləkəlik virusu (*Tobacco ringspot virus*) və pomidorun halqavari ləkəlik virusundan (*Tomato ringspot nepovirus*) azad olmalıdır. |

| | | |
|---|---|---|
| **36** | Giləmeyvə bitkilərinin (moruq, böyürtkən, qarağat, qaragilə, kivi) köksüz formaları, çilikləri<br><br>0602 10 900 0-dan<br>0602 20 800 9-dan | Qərb çiçək tripsi (*Frankliniella occidentalis*), Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*), qara sitrus ağqanadlısı (*Aleurocanthus woglumi*) və Yaponiya böcəyindən (*Popillia japonica*) azad olmalıdır.<br>Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*) və tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*) yayılmış ölkələrdə ixrac edən ölkə ərazisində karantin obyektlərinin məhv edilməsini təmin edəcək üsullarla işlənməli və bu barədə fitosanitar sertifikatda müvafiq qeyd edilməlidir. |
| **37** | Böyürtkən (*Rubus spp.*) cinsinə aid bitkilərin tingləri<br><br>0602 20 200 1-dən<br>0602 20 800 1-dən | Bu cədvəlin 35-ci hissəsinin tələbləri gözlənilməklə moruğun halqavari ləkəlilik virusundan (*Raspberry ringspot nepovirus*) və çiyələk və moruğun kök çürüməsi fitoftorozundan (*Phytophthora fragariae*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində moruğun halqavari ləkəlilik virusunun (*Raspberry ringspot nepovirus*) və çiyələk və moruğun kök çürüməsi fitoftorozunun (*Phytophthora fragariae*) əlamətləri müşahidə edilməmişdir." |
| **38** | Çiyələk (*Fragaria spp.*) cinsinə aid bitkilərin şitilləri<br><br>0602 90 300 0-dan | Bu cədvəlin 35-ci hissəsinin tələbləri gözlənilməklə çiyələyin antraknozu (*Colletotrichum acutatum),* moruğun halqavari ləkəlilik virusu (*Raspberry ringspot nepovirus*), çiyələyin latent həlqəvi ləkəlilik virusu (*Strawberry latent ringspot virus*), və çiyələk və moruğun kök çürüməsi fitoftorozundan (*Phytophthora fragariae*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində moruğun halqavari ləkəlilik virusunun (*Raspberry ringspot nepovirus*), çiyələyin latent həlqəvi ləkəlilik virusunun |

| | | |
|---|---|---|
| | | (*Strawberry latent ringspot virus*) və çiyələk və moruğun kök çürüməsi fitoftorozunun (*Phytophthora fragariae*) əlamətləri müşahidə edilməmişdir.” |
| **39** | Moruq (*Rubus idaeus*) bitkilərinin çilikləri<br><br>0602 10 900 0-dan | Bu cədvəlin 35-ci hissəsinin tələbləri gözlənilməklə moruğun halqavari ləkəlilik virusundan (*Raspberry ringspot nepovirus*) və çiyələyin latent həlqəvi ləkəlilik virusundan (*Strawberry latent ringspot virus*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>“İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində moruğun halqavari ləkəlilik virusu (*Raspberry ringspot nepovirus*) və çiyələyin latent həlqəvi ləkəlilik virusunun (*Strawberry latent ringspot virus*) əlamətləri müşahidə edilməmişdir.” |
| **40** | Qaragilə (*Vaccinium spp.*) bitkisinin tingləri<br><br>0602 20 200 1-dən<br>0602 20 800 1-dən | Bu cədvəlin 35-ci hissəsinin tələbləri gözlənilməklə qaragilənin kök çürüməsindən (*Diaporthe vaccinii*) və ağac və kol bitkilərinin fitoftorozundan (*Phytophthora ramorum*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br><br>1) “Əkin materialları qaragilənin kök çürüməsinə (*Diaporthe vaccinii*) və ağac və kol bitkilərinin fitoftorozuna (*Phytophthora ramorum*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır.”<br><br>və ya<br><br>2) “İstehsal sahələrindəki bitkilərdə son vegetasiya dövrü ərzində qaragilənin kök çürüməsinin (*Diaporthe vaccinii*) və ağac və kol bitkilərinin fitoftorozunun (*Phytophthora ramorum*) əlamətləri müşahidə edilməmişdir.” |
| | **Üzüm tingləri, calaqaltıları və çilikləri** | |

| | | |
|---|---|---|
| **41** | Üzüm (*Vitis spp.*) cinsinə aid bitkilərin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 10 100 0<br>0602 20 100 0 | Əncir mumlu yalançı qalxanlı yastıcası (*Ceroplastes rusci*), qara sitrus ağqanadlısı (*Aleurocanthhus woglumi*), filloksera (*Viteus vitifoliae*), kök xərçəngi (*Agrobacterium tumefaciens*), üzümdə qızılı saralma fitoplazması (*Grapevine flavescence dorée phytoplasma*), üzümün bakteriozu və ya Pirs xəstəliyi (*Xylella fastidiosa*), üzümün bakterial solması (*Xylophilus ampelinus*), Komstok yastıcası (*Pseudococcus comstocki*), Yaponiya yalançı qalxanlı mumlu yastıcası (*Ceroplastes japonicus*) və nizəşəkilli nematoddan (*Xiphinema rivesi*) azad olmalıdır.<br>"Əkin materiallarının üzümdə qızılı saralma fitoplazması (*Grapevine flavescence dorée phytoplasma*) və üzümün bakteriozu və ya Pirs xəstəliyinin (*Xylella fastidiosa*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br><br>1) "Əkin materialları üzümdə qızılı saralma fitoplazmasından (*Grapevine flavescence dorée phytoplasma*) və üzümün bakteriozu və ya Pirs xəstəliyindən (*Xylella fastidiosa*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir."<br><br>və ya<br><br>2) "Əkin materialları üzümdə qızılı saralma fitoplazmasına *(Grapevine flavescence dorée phytoplasma)* və üzümün bakteriozu və ya Pirs xəstəliyinə (*Xylella fastidiosa*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır." |
| **Dekorativ bitkilərin soğanaqları, soğanaqlı yumruları, kökümsovları** | | |
| **42** | Dekorativ bitkilərin (sünbülçiçəyi, nərgiz, zanbaq, qladiolus) soğanaqları, soğanaqlı yumruları, kökümsovları<br><br>0601 10 100 0<br>0601 10 200 0 | Qərb çiçək tripsi (*Frankliniella occidentalis*), palma tripsi (*Thrips palmi*), gövdə nematodu (*Ditylenchus spp.*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), kök fır nematodu (*Meloidogyne enterolobii*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), kartof xərçəngi |

| | | |
|---|---|---|
| | 0601 10 300 0<br>0601 10 400 0<br>0601 10 900 0-dan | (*Synchytrium endobioticum*), Texas kök çürüməsi (*Phymatotrichopsis omnivora*) və xınagülünün ləkəli nekroz virusundan (*Impatiens necrotic spot tospovirus*) azad olmalıdır. |
| **43** | Soğan (*Allium spp.*) cinsinə aid bitkilərin soğanaqları<br><br>0601 10 900 0-dan | Qərb çiçək tripsi (*Frankliniella occidentalis*), palma tripsi (*Thrips palmi*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), xınagülünün ləkəli nekroz virusu (*Impatiens necrotic spot tospovirus*), soğanın yarpaq yanığı (*Xanthomonas axonopodis pv. allii*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), gövdə nematodu (*Ditylenchus dipsaci*), nizəşəkilli nematod (*Xiphinema rivesi*) və soğanın ağ çürüməsindən (*Stromatinia cepivora)* azad olmalıdır. |
| **Dekorativ ağac və kol bitkiləri** | | |
| **44** | Enlyarpaqlı bitki növlərin tingləri (dekorativ ağac və kol bitkiləri daxil olmaqla) Avropa fıstığı (*Fagus sylvatica*), göyrüş (*Fraxinus spp.*), tozağacı (*Betula spp.* ), palıd (*Quercus spp.*), şabalıd (*Castanea spp.*), qızılı şabalıd (*Castanopsis chrysophylla*), qızılağac (*Alnus spp.)* və qovaq (*Populus spp.*) istisna edilməklə<br><br>0602 30 000 0<br>0602 90 410 0-dan<br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0-dan | Texas kök çürüməsi (*Phymatotrichopsis omnivora*), qızılağacın fitoftorozu (*Phytophthora alni*), ağac və kol bitkilərinin fitoftorozu (*Phytophthora ramorum*), meyvə ağaclarının yanığı (*Erwinia amylovora*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), kök fır nematodu (*Meloidogyne enterolobii*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*), şərq unlu yastıcası (*Pseudococcus citriculus*), Komstok yastıcası (*Pseudococcus comstocki*), əncir mumlu yalançı qalxanlı yastıcası (*Ceroplastes rusci*), Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*) və Yaponiya çöpvari qalxanlı yastıcasından (*Lopholeucaspis japonica*) azad olmalıdır. |

| | | |
|---|---|---|
| **45** | İrga (*Amelanchier spp.*), zoğal (*Cornus spp.*), dovşanalması (*Cotoneaster spp.*), stranveziya (*Stranvesia spp.*), xenomeles (*Chaenomeles spp.*), fotiniya (*Photinia spp.*), yemişan (*Crataegus spp.*), eriobortiya (*Eriobotrya spp.*), əzgil (*Mespilus spp.*), pirakanta (*Pyracantha spp.*) və quşarmudu (*Sorbus spp.*) bitkilərinin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 10 900 0-dan<br>0602 20 200 1-dan<br>0602 20 200 9-dan<br>0602 20 800 1-dan<br>0602 20 800 9-dan<br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0-dan | Bu cədvəlin 44-cü hissəsinin tələbləri gözlənilməklə meyvə ağaclarının yanığından (*Erwinia amylovora*) azad olmalıdır.<br>Əkin materiallarının meyvə ağaclarının yanığının (*Erwinia amylovora*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Əkin materialları meyvə ağaclarının yanığından (*Erwinia amylovora*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir." |
| **46** | Qızılgül (*Rosa*) çilikləri, calaq olunmuş və ya olunmamış<br><br>0602 40 000 0 | Bu cədvəlin 44-cü hissəsinin tələbləri gözlənilməklə qərb çiçək tripsi (*Frankliniella occidentalis*), Hind-Çin çiçək tripsi (*Scirtothrips dorsalis*), qərənfil yarpaqbükəni (*Cacoecimorpha pronubana*), Cənubi Afrika qərənfil yarpaqbükənindən (*Epichoristodes acerbella*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br><br>"İstehsal sahəsindəki bitkilərdə vegetasiya dövrü ərzində qərənfil yarpaqbükəninin (*Cacoecimorpha pronubana*) və Cənubi Afrika qərənfil yarpaqbükəninin (*Epichoristodes acerbella*) əlamətləri müşahidə edilməmişdir". |
| **Meşə və meşə-dekorativ bitkilərinin tingləri** | | |
| **47** | İynəyarpaqlı bitkilərin tingləri (bonsay da daxil olmaqla) qaraçöhrə (*Taxus spp.*) və tuya (*Thuja spp.*) istisna olmaqla<br><br>0602 90 450 0-dan | Kiçik küknar uzunbığ böcəyi (*Monochamus sutor*), böyük küknar qabıqyeyəni (*Dendroctonus micans*), Karolina uzunbığı (*Monochamus carolinensis*), Yaponiya şam uzunbığ böcəyi (*Monochamus alternatus),* xallı şam uzunbığı (*Monochamus clamator*), qabıqyeyənlər (*İps spp.*), |

| | | |
|---|---|---|
| | 0602 90 460 0-dan<br>0602 90 470 0-dan | şam gövdə nematodu (*Bursaphelenchus xylophilus*), şamın qəhvəyi ləkəli yanıqlığı (*Mycosphaerella dearnessii*) və şam toxum taxtabitisindən (*Leptoglossus occidentalis*), azad olmalıdır.<br>Əkin materiallarının şam gövdə nematodu (*Bursaphelenchus xylophilus*) və şamın qəhvəyi ləkəli yanıqlığının (*Mycosphaerella dearnessii*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakılardan biri qeyd olunmalıdır:<br><br>1) "Əkin materialları şam gövdə nematodundan (*Bursaphelenchus xylophilus*) və şamın qəhvəyi ləkəli yanıqlığından (*Mycosphaerella dearnessii*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir."<br><br>və ya<br><br>2) "Əkin materialları şam gövdə nematodu (*Bursaphelenchus xylophilus*) və şamın qəhvəyi ləkəli yanıqlığına (*Mycosphaerella dearnessii*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır." |
| **48** | Qaraçöhrə (*Taxus*) və tuya (*Thuja*) cinslərinə aid bitkilərin tingləri<br><br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 470 0-dan | Bu cədvəlin 47-ci hissəsinin tələbləri gəzlənilməklə ağac və kol bitkilərinin fitoftorozundan (*Phytophthora ramorum*) azad olmalıdır. |
| **49** | Qovaq (*Populus*) cinsinə aid bitkilərin tingləri<br><br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0-dan | Bu cədvəlin 47-ci hissəsinin tələbləri gözlənilməklə qovağın pası (*Melampsora medusae*), Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyindən (*Anoplophora chinensis*) azad olmalıdır.<br>Əkin materiallarının qovağın pası (*Melampsora medusae*), Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyinin (*Anoplophora chinensis*) rast gəlindiyi ölkələrdən |

| | | |
|---|---|---|
| | | idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>“Əkin materialları qovağın pası (*Melampsora medusae*), Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyindən (*Anoplophora chinensis*) azad zona, azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir.” |
| **50** | Palıd (*Quercus spp.*), şabalıd (*Castanea spp.*), qızılı şabalıd (*Castanopsis chrysophylla*), meşə fıstığının (*Fagus sylvatica*) tingləri, calaqaltıları və çilikləri<br><br>0602 20 200 1-dən<br>0602 20 800 1-dən<br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0-dan | Bu cədvəlin 47-ci hissəsinin tələbləri gözlənilməklə Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*), çinar taxtabitisi (*Corythucha ciliata*), Çin uzunbığ böcəyi (*Anoplophora chinensis*), şabalıdda gövdə yanığı (*Cryphonectria parasitica*), qırmızıboyunlu uzunbığ (*Aromia bungii*) və ağac və kol bitkilərinin fitoftorozundan (*Phytophthora ramorum*) azad olmalıdır. |
| **51** | Göyrüş (*Fraxinus*) cinsinə aid bitkilərin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0-dan | Bu cədvəlin 47-ci hissəsinin tələbləri gözlənilməklə zümrüdü göyrüş qızılböcəyindən (*Agrilus planipennis*) azad olmalıdır.<br>Əkin materiallarının zümrüdü göyrüş qızılböcəyinin (*Agrilus planipennis*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>“Əkin materialları zümrüdü göyrüş qızılböcəyindən (*Agrilus planipennis*) azad zona, azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir.” |
| **52** | Qızılağac (*Alnus*) cinsinə aid bitkilərin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 90 410 0-dan<br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0-dan | Bu cədvəlin 47-ci hissəsinin tələbləri gözlənilməklə qızılağacın fitoftorozu (*Phytophthora alni*), Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyindən (*Anoplophora chinensis*) azad olmalıdır.<br>Əkin materiallarının Asiya uzunbığ böcəyinin (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyinin (*Anoplophora chinensis*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır: |

| | | |
|---|---|---|
| | | "Əkin materialları Asiya uzunbığ böcəyindən (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyindən (*Anoplophora chinensis*) azad zona, azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir." |
| **53** | Tozağacı (*Betula*) cinsinə aid bitkilərin tingləri, calaqaltıları və çilikləri<br><br>0602 90 410 0-dan<br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0-dan | Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*), tozağacı qızılböcəyi (*Agrilus anxius*) və Çin uzunbığ böcəyindən (*Anoplophora chinensis*) azad olmalıdır.<br>Əkin materiallarının Asiya uzunbığ böcəyi (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyinin (*Anoplophora chinensis*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Əkin materialları Asiya uzunbığ böcəyindən (*Anoplophora glabripennis*) və Çin uzunbığ böcəyindən (*Anoplophora chinensis*) azad zona, azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir." |
| **Dibçəkdə yetişdirilən müxtəlif bitkilər** | | |
| **54** | Dibçəkdə yetişdirilən müxtəlif bitkilər<br><br>0601 20 300 0-dan<br>0601 20 900 0-dan<br>0602 20 300 9-dan<br>0602 20 800 9-dan<br>0602 30 000 0-dan<br>0602 40 000 0-dan<br>0602 90 200 0-dan<br>0602 90 450 0-dan<br>0602 90 470 0-dan<br>0602 90 480 0-dan<br>0602 90 500 0-dan<br>0602 90 910 0-dan<br>0602 90 990 0-dan | Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*), Yaponiya çöpvari qalxanlı yastıcası (*Lopholeucaspis japonica*), Cənubi Amerika yarpaq lağımlayıcısı (*Liriomyza huidobrensis*), Amerika yonca minalayıcısı (*Liriomyza trifolii*), tərəvəz yarpaq lağımlayıcısı (*Liriomyza sativae*), pambıq ağqanadlısı (*Bemisia tabaci*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), qara sitrus ağqanadlısı (*Aleurocanthhus woglumi*), qərb çiçək tripsi (*Frankliniella occidentalis*), palma tripsi (*Thrips palmi*), qərənfildə fialoforoz (*Phialophora cinerescens*), ağac və kol bitkilərinin fitoftorozu (*Phytophthora ramorum*), qərənfilin bakterial solğunluğu (*Paraburkholderia caryophylli*), tütünün halqavari ləkəlik virusu (*Tobacco ringspot virus*), pomidorun halqavari ləkəlik virusu (*Tomato ringspot virus*), xınagülünün ləkəli nekroz virusu (*Impatiens necrotic spot virus*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*) və Kolumbiya yalançı kök fır |

| | | |
|---|---|---|
| | | nematodundan (*Meloidogyne fallax*) azad olmalıdır. |
| **55** | Şamdangülü (*Pelargonium spp.*)<br><br>0602 90 700 0-dan<br>0602 90 910 0-dan | Bu cədvəlin 54-cü hissəsinin tələbləri gözlənilməklə qarğıdalı yarpaq sovkası (*Spodoptera frugiperda*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), qərənfil yarpaqbükəni (*Cacoecimorpha pronubana*) və şamdangülünün pas xəstəliyindən (*Puccinia pelargonii-zonalis*) azad omalıdır.<br>Bitkilərin, kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*) və şamdangülünün pas xəstəliyinin (*Puccinia pelargonii-zonalis*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Bitkilər kartofun qonur çürüməsindən (*Ralstonia solanacearum*) və şamdangülünün pas xəstəliyindən (*Puccinia pelargonii-zonalis*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir." |
| **56** | Qərənfil (*Dianthus*) (toxum istisna olmaqla əkin materailı)<br><br>0602 90 500 0-dan<br>0602 90 700 0-dan<br>0602 90 910 0-dan | Bu cədvəlin 54-cü hissəsinin tələbləri gözlənilməklə dekorativ bitkilərin bakterial solğunluğu (*Erwinia chrysanthemi*), qərənfilin solğunluğu xəstəliyi (*Phialophora cinerescens*) və qarğıdalı yarpaq sovkasından (*Spodoptera frugiperda*) azad olmalıdır. |
| **57** | Kameliya (*Camellia spp.*)<br><br>0602 90 500 0-dan<br>0602 90 700 0-dan<br>0602 90 910 0-dan | Bu cədvəlin 54-cü hissəsinin tələbləri gözlənilməklə ağac və kol bitkilərinin fitoftorozu (*Phytophthora ramorum*) və kameliyanın çiçək yanığından (*Ciborinia camelliae*) azad olmalıdır.<br><br>Bitkilərin, ağac və kol bitkilərinin fitoftorozunun (*Phytophthora ramorum*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olmalıdır:<br><br>"Bitkilər ağac və kol bitkilərinin fitoftorozuna (*Phytophthora ramorum*) görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır." |

| | | |
|---|---|---|
| **58** | Payızgülü (*Chrysanthemum spp.*)<br>0602 90 500 0-dan | Bu cədvəlin 54-cü hissəsinin tələbləri gözlənilməklə payızgülünün ağ pası (*Puccinia horiana*), payızgülünün antraknozu (*Didymella ligulicola*), Payızgülünün cırtdanboyluluq virusu (*Chrysanthemum stunt pospoviroid*), Payızgülü cücərtilərinin nekrozu (*Chrysanthemum stem necrosis tospovirus*), yarpaq lağımlayıcıları (*Liriomyza spp*.) və qarğıdalı yarpaq sovkasından (*Spodoptera frugiperda*) azad olmalıdır. |
| | **Giləmeyvə bitkiləri, güllərin və tərəvəzlərin şitilləri** | |
| **59** | Giləmeyvə bitkiləri (çiyələk, moruq, böyürtkən, qarağat, qaragilə, kivi), güllər və tərəvəzlərin şitilləri<br><br>0602 20 800 9-dan<br>0602 90 300 0-dan<br>0602 90 500 0-dan<br>0602 90 700 0-dan | Asiya pambıq sovkası (*Spodoptera litura*), Amerika yonca minalayıcısı (*Liriomyza trifolii*), pomidorun bürünclük virusu (*Tomato spotted wilt virus*), Misir pambıq sovkası (*Spodoptera littoralis*), qərb çiçək tripsi (*Frankliniella occidentalis*), qarğıdalı yarpaq sovkası (*Spodoptera frugiperda*), tərəvəz yarpaq lağımlayıcısı (*Liriomyza sativae*), pambıq ağqanadlısı (*Bemisia tabaci*), palma tripsi (*Thrips palmi*), qara sitrus ağqanadlısı (*Aleurocanthus woglumi*), Cənubi Amerika yarpaq lağımlayıcısı (*Liriomyza huidobrensis*), cənub sovkası (*Spodoptera eridania*), gövdə nematodu (*Ditylenchus dipsaci*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), kök fır nematodu (*Meloidogyne enterolobii*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), kartof xərçəngi (*Synchytrium endobioticum*), ağac və kol bitkilərinin fitoftorozu (*Phytophthora ramorum*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), və xınagülünün ləkəli nekroz virusundan (*Impatiens necrotic spot tospovirus*) azad olmalıdır. |
| **60** | Çiyələk (*Fragaria spp.*) və moruq (*Rubus idaeus*) bitkilərinin şitilləri<br><br>0602 90 300 0-dan<br>0602 20 800 9-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə çiyələyin antraknozu (*Colletotrichum acutatum*), moruğun halqavari ləkəlilik nepovirusu (*Raspberry ringspot nepovirus*), çiyələyin latent həlqəvi ləkəlilik virusu (*Strawberry latent ringspot virus*), çiyələk və moruğun kök çürüməsi fitoftorozundan (*Phytophthora fragariae*) azad olmalıdır. |

| | | |
|---|---|---|
| | | Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"İstehsal sahəsindəki bitkilərdə son vegetasiya dövrü ərzində moruğun halqavari ləkəlilik nepovirusunun (*Raspberry ringspot nepovirus*), çiyələyin latent həlqəvi ləkəlilik virusunun (*Strawberry latent ringspot virus*), çiyələk və moruğun kök çürüməsi fitoftorozunun (*Phytophthora fragariae*) əlamətləri müşahidə edilməmişdir." |
| **61** | Qaragilə (*Vaccinium spp.*), mərcanı (*Oxycoccus spp.*) bitkilərinin şitilləri<br>0602 20 800 9-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə ağac və kol bitkilərinin fitoftorozundan (*Phytophthora ramorum*) azad olmalıdır. |
| **62** | Payızgülü (*Chrysanthemum spp.*) şitilləri<br><br>0602 90 500 0-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə payızgülünün ağ pası (*Puccinia horiana*), payızgülünün antraknozu (*Didymella ligulicola*), Payızgülünün cırtdanboyluluq virusu (*Chrysanthemum stunt pospoviroid*), Payızgülü cücərtilərinin nekrozu (*Chrysanthemum stem necrosis tospovirus*), Yarpaq lağımlayıcıları (*Liriomyza spp.*), qarğıdalı yarpaq sovkası (*Spodoptera frugiperda*) və pomidorun bürünclük virusundan (*Tomato spotted wilt virus*) azad olmalıdır. |
| **63** | Petuniya (*Petunia spp.*) şitilləri<br><br>0602 90 500 0-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə pomidorun bürünclük virusundan (*Tomato spotted wilt virus*) azad olmalıdır. |
| **64** | Pomidorun (*Solanum lycopersicum*) şitillləri<br><br>0602 90 300 0-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə pomidor yarpaqlarının sarı yarpaq qıvrılma virusu (*Tomato yellow leaf curl begomovirus*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), pomidor meyvələrinin qonur qırışıqlıq virusu (*Tomato brown rugose fruit virus*), pepino mozaika virusu (*Pepino mosaic virus*) və pomidorun bürünclük virusundan (*Tomato spotted wilt virus*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır: |

| | | |
|---|---|---|
| | | “Məhsul pomidor meyvələrinin qonur qırışıqlıq virusuna (*Tomato brown rugose fruit virus*), kartofun qonur çürüməsinə (*Ralstonia solanacearum*), pepino mozaika virusuna (*Pepino mosaic virus*), pomidorun bürünclük virusuna (*Tomato spotted wilt virus)* və pomidor yarpaqlarının sarı yarpaq qıvrılma virusuna (*Tomato yellow leaf curl virus)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmlərdən azaddır.” |
| **65** | Badımcan (*Solanum melongena*) və bibər (*Capsicum spp*) şitilləri<br><br>0602 90 300 0-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə kartofun qonur çürüməsi (*Ralstonia solanacearum),* pomidorun bürünclük virusu (*Tomato spotted wilt virus*) və pomidor meyvələrinin qonur qırışıqlıq virusundan (*Tomato brown rugose fruit virus*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>“Məhsul pomidor meyvələrinin qonur qırışıqlıq virusuna (*Tomato brown rugose fruit virus)* və kartofun qonur çürüməsinə (*Ralstonia solanacearum)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır.” |
| **66** | Fuksiya (*Fuchsia spp.*) şitilləri<br><br>0602 90 500 0-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə fuksiyanın qal əmələgətirən gənəsindən (*Aculops fuchsiae*) azad olmalıdır. |
| **67** | Qərənfil (*Dianthus spp.*) şitilləri<br><br>0602 90 500 0-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə dekorativ bitkilərin bakterial solğunluğu (*Erwinia chrysanthemi*),<br>qərənfilin solğunluğu xəstəliyi (*Phialophora cinerescens*) və qarğıdalı yarpaq sovkasından (*Spodoptera frugiperda*) azad olmalıdır. |
| **68** | Balqabaqkimilər fəsiləsinə (*Cucurbitaceae*) aid bitkilərin şitilləri<br><br>0602 90 300 0-dan<br>0602 90 700 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə balqabağın bakterial ləkəliliyindən (*Acidovorax citrulli*) azad olmalıdır. |
| **69** | Soğan (*Allium spp.*) şitilləri<br>0602 90 300 0-dan | Bu cədvəlin 59-cu hissəsinin tələbləri gözlənilməklə gövdə nematodu (*Ditylenchus* |

| | | |
|---|---|---|
| | | *dipsaci*) və soğanın yarpaq yanığından (*Xanthomonas axonopodis pv. allii*) azad olmalıdır. |
| **Tropik bitkilər** | | |
| **70** | Tropik və subtropik (sitrus bitkiləri, palma, əncir, ananas, avokado, manqo və s.) bitkilər<br><br>0602 20 200 1-dən<br>0602 20 200 9 -dan<br>0602 20 300 1<br>0602 20 300 9<br>0602 20 800 1-dən<br>0602 20 800 9-dan<br>0602 90 200 0-dan<br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan<br>0602 90 480 0 | Şərq unlu yastıcası (*Pseudococcus citriculus*), qırmızı palma uzunburunu (*Rhynchophorus ferrugineus*), Komstok yastıcası (*Pseudococcus comstocki*), sitrus unlu yastıcası (*Pseudococcus gahani*), Çin uzunbığ böcəyi (*Anoplophora chinensis*), portağal qalxanlı yastıcası (*Unaspis citri*), qara yalançı qalxanlı yastıcası (*Parasaissetia nigra*), qərb çiçək tripsi (*Frankliniella occidentalis*), palma tripsi (*Thrips palmi*), Kaliforniya qalxanlı yastıcası (*Quadraspidiotus perniciosus*), tut qalxanlı yastıcası (*Pseudaulacaspis pentagona*), Yaponiya çöpvari qalxanlı yastıcası (*Lopholeucaspis japonica*), solğun kartof nematodu (*Globodera pallida*), qızılı kartof nematodu (*Globodera rostochiensis*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), kök fır nematodu (*Meloidogyne enterolobii*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*) və kartof xərçəngindən (*Synchytrium endobioticum*) azad olmalıdır. |
| **71** | Banan (*Musa spp.*) bitkisi<br>0602 20 200 1-dən<br>0602 20 200 9 -dan<br>0602 90 450 0-dan<br>0602 90 460 0-dan | Bananın panama xəstəliyi *(Fusarium oxysporum f. sp. cubense Tropical race 4),* kartofun qonur çürüməsi (*Ralstonia solanacearum)* və kök xərçəngindən (*Agrobacterium tumefaciens*) azad olmalıdır.<br>Fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>Məhsul Bananın panama xəstəliyinə *(Fusarium oxysporum f. sp. cubense Tropical race 4)* görə tədqiq (sınaq) edilmiş və nəticəyə əsasən bu orqanizmdən azaddır.” |

## 5. Tərəvəzlər və ərzaqlıq kartofa qoyulan fitosanitar karantin tələbləri

**5.1.** Ərzaqlıq kartofda, digər kök və gövdə yumrularında torpaq qalıntısı məhsulun faktiki çəkisinin 1%-dən çox olmamalıdır.

**5.2.** Kartof və digər tərəvəz bitkiləri Asiya pambıq sovkası (*Spodoptera litura*), Amerika yonca minalayıcısı (*Liriomyza trifolii*), Cənubi Amerika yarpaq lağımlayıcısı (*Liriomyza huidobrensis*), tərəvəz yarpaq lağımlayıcısı (*Liriomyza sativae*), pambıq ağqanadlısı (*Bemisia tabaci*), pomidor lağımlayıcı güvəsi (*Tuta absoluta*), qərb çiçək tripsi (*Frankliniella occidentalis*), palma tripsi (*Thrips palmi*), Şərq yemiş milçəyi (*Bactrocera cucurbitae*), Qvatemala kartof güvəsi (*Tecia solanivora*), solğun kartof nematodu (*Globodera pallida*), qızılı kartof nematodu (*Globodera rostochiensis*), kartof güvəsi (*Phthorimaea operculella*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax*), paxlada bakterial yanıqlıq (*Xanthomonas axonopodis pv. alii*), nizəşəkilli nematod (*Xiphinema rivesi*), çuğundur damarlarının nekrotik saralma virusu (*Beet necrotic yellow vein benyvirus*), kartof yumrularının milşəkilliliyi viroidi (*Potato spindle tuber viroid*), kartofun and latent virusu (*Potato Andean latent virus*), kartof (yumrularının) sürməsi (*Thecaphora solani*), balqabağın bakterial ləkəliliyi (*Acidovorax citrulli*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*) və kartof xərçəngindən (*Synchytrium endobioticum*) azad olmalıdır.

**5.3.** Tərəvəz və ərzaqlıq kartofa qoyulan xüsusi fitosanitar tələblər cədvəl 2-də qeyd edilmişdir.

**Cədvəl 2**

**Tərəvəzlər və ərzaqlıq kartofa qoyulan xüsusi fitosanitar karantin tələbləri**

| № | Karantin nəzarətində olan malın növü (XİF MN üzrə kodla) | Xüsusi fitosanitar karantin tələbləri |
|---|---|---|
| 1 | Təzə və ya soyudulmuş ərzaqlıq və texniki məqsədlər üçün kartof (*Solanum tuberosum*)<br><br>0701 90 100 0<br>0701 90 500 0<br>0701 90 900 0 | Bu tələbin 5.1-ci bəndinin tələbləri gözlənilməklə kökyumrusu birəböcəyi (*Epitrix tuberis),* kartof torpaq birəböcəyi (*Epitrix cucumeris),* kartof sürməsi (*Thecaphora solani),* Qvatemala kartof güvəsi (*Tecia solanivora*), kartofda qanqrena (*Phoma foveata*), kartofun and latent virusu (*Andean potato latent virus*), kartof güvəsi (*Phthorimaea operculella*), kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi),* Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax),* solğun kartof nematodu(*Globodera pallida),* qızılı kartof nematodu (*Globodera rostochiensis),* |

| | | |
|---|---|---|
| | | gövdə nematodu (*Ditylenchus dipsaci*), kartof gövdə nematodu (*Ditylenchus destructor*), nizəşəkilli nematod *(Xiphinema rivesi),* kartof yumrularında halqavari bakterial çürümə (*Clavibacter michiganensis subsp. sepedonicus*), kartofun xərçəngi (*Synchytrium endobioticum*) və kartof yumrularının milşəkilliliyi viroidindən (*Potato spindle tuber viroid*) və azad olmalıdır.<br>Məhsulun kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), kartof xərçəngi (*Synchytrium endobioticum*) və yumrularda halqavari bakterial çürüməsinin (*Clavibacter michiganensis subsp. sepedonicus*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır:<br>"Məhsul kartofun qonur çürüməsi (*Ralstonia solanacearum*), kartof xərçəngi (*Synchytrium endobioticum*) və kartof yumrularında halqavari bakterial çürümədən (*Clavibacter michiganensis subsp. sepedonicus*) azad istehsal yeri və (və ya) sahəsində istehsal edilmişdir." |
| **2** | Təzə və ya soyudulmuş pomidor (*Solanum lycopersicum)*<br>0702 00 000 0 | Pomidor meyvələrinin qonur qırışıqlıq virusu *(Tomato brown rugose fruit virus),* pepino mozaika virusu *(Pepino mosaic virus),* qarğıdalı yarpaq sovkası *(Spodoptera frugiperda),* cənub sovkası *(Spodoptera eridania),* Asiya pambıq sovkası (*Spodoptera litura),* Misir pambıq sovkası (*Spodoptera littoralis*), pomidor lağımlayıcı güvəsi (*Tuta absoluta*), qərb çiçək tripsi (*Frankliniella occidentalis*), qırmızı tor gənəsi *(Tetranychus evansi)* və sarı sarmaşıqdan *(Cuscuta spp.)* azad olmalıdır.<br>Məhsulun pomidor meyvələrinin qonur qırışıqlıq virusu (*Tomato brown rugose fruit virus)* və pepino mozaika virusunun |

| | | |
|---|---|---|
| | | (*Pepino mosaic virus*) rast gəlindiyi ölkələrdən idxalı zamanı fitosanitar sertifikatda aşağıdakı qeyd olunmalıdır: “Məhsulun pomidor meyvələrinin qonur qırışıqlıq virusundan (*Tomato brown rugose fruit virus)* və pepino mozaika virusundan (*Pepino mosaic virus*) azad istehsal yerində və (və ya) sahəsində istehsal edilmişdir.” |
| **3** | Şalğamaoxşar soğan (*Allium cepa),* soğan-şalot (*Allium ascalonicum),* kəvər soğanı (*Allium porrum),* sarımsaq (*Allium sativum)* və digər soğanaqlı tərəvəzlər, təzə və ya soyudulmuş<br><br>0703 10 190 0<br>0703 10 900 0<br>0703 20 000 0<br>0703 90 000 0 | Qərb çiçək tripsi *(Frankliniella occidentalis)* və qarğıdalı yarpaq sovkasından *(Spodoptera frugiperda)* azad olmalıdır. |
| **4** | Baş kələm, gül kələm, daş kələm (kolrabi), yarpaq kələm və Brassica növlü analoji yeyilən tərəvəzlər, təzə<br><br>0704 10 000 0<br>0704 20 000 0<br>0704 90 100 0<br>0704 90 800 0 | Amerika yonca minalayıcısı (*Liriomyza trifolii*), tərəvəz yarpaq lağımlayıcısı (*Liriomyza sativae*), qərb çiçək tripsi (*Frankliniella occidentalis*), pambıq ağqanadlısı (*Bemisia tabaci),* Asiya pambıq sovkası (*Spodoptera litura)* və Misir pambıq sovkasından (*Spodoptera littoralis)* azad olmalıdır. |
| **5** | Kahı (*Lactuca sativa*) və kasnı (*Cichorium spp*.), təzə və ya soyudulmuş<br><br>0705 11 000 0<br>0705 19 000 0<br>0705 21 000 0<br>0705 29 000 0 | Pambıq ağqanadlısı (*Bemisia tabaci),* Misir pambıq sovkası (*Spodoptera littoralis),* Amerika yonca minalayıcısı (*Liriomyza trifolii),* Cənubi Amerika yarpaq lağımlayıcısı (*Liriomyza huidobrensis*) və tərəvəz yarpaq lağımlayıcısından (*Liriomyza sativae*) azad olmalıdır. |

| | | |
|---|---|---|
| | | Kahı (*Lactuca sativa*) və kasnı (*Cichorium spp.*) köklü idxal olunduğu halda, yuxarıdakı abzasda göstərilənlərlə yanaşı Kolumbiya yalançı kök fır nematodundan (*Meloidogyne fallax)* azad olmalıdır. |
| **6** | Yerkökü (*Dacus*), şalğam-turp (*Brassica rapa*), mətbəx (qırmızı) çuğunduru, keçisaqqalı (*Tragopogon*), meyvəköklü kərəviz (*Apium*), qırmızı turp (*Raphanus sativus*) və başqa analoji yeyilən meyvəköklülər, təzə və soyudulmuş<br><br>0706 10 000 0<br>0706 90 100 0<br>0706 90 300 0<br>0706 90 900 0 | Texas kök çürüməsi *(Phymatotrichopsis omnivora),* solğun kartof nematodu (*Globodera pallida)*, qızılı kartof nematodu (*Globodera rostochiensis),* Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi),* Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax)* və çuğundur damarlarının nekrotik saralma virusundan (*Beet necrotic yellow vein benyvirus*) azad olmalıdır. |
| **7** | Xiyar (*Cucumis sativus*) və kornişonlar, təzə və ya soyudulmuş<br><br>0707 00 050 0<br>0707 00 900 0 | Şərq yemiş milçəyi *(Bactrocera cucurbitae)*, qabaq milçəyi (*Dacus ciliatus* ), qarğıdalı yarpaq sovkası *(Spodoptera frugiperda),* qərb çiçək tripsi *(Frankliniella occidentalis),* pambıq ağqanadlısından (*Bemisia tabaci*) azad olmalıdır. |
| **8** | Şalğam (*Brassica rapa*), yarpaq çuğunduru (manqold) (*Beta vulgaris*), yem meyvəköklüləri, yem kələmi (*Brassica oleracea var. acephata*)<br><br>0706 90 900 0<br>1214 90 100 0<br>1214 90 900 0 | Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi),* Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax)* və çuğundur damarlarının nekrotik saralma virusundan (*Beet necrotic yellow vein benyvirus*) azad olmalıdır. |
| **9** | Şəkər çuğunduru (*Beta vulgaris*)<br>1212 91 800 0 | Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi),* Kolumbiya yalançı kök fır nematodu (*Meloidogyne fallax)* və çuğundur damarlarının nekrotik saralma virusundan *(Beet necrotic yellow vein benyvirus)* azad olmalıdır. |

| | | |
|---|---|---|
| **10** | Paxlalı tərəvəzlər (*Fabaceae*), qabıqlı, təzə və ya soyudulmuş<br><br>0708 10 000 0-dan<br>0708 20 000 0-dan<br>0708 90 000 0-dan | *Spodoptera spp.* və Kallosobruxus (*Callosobruchus spp*.) cinsindən olan dənyeyənlərdən azad olmalıdır. |
| **11** | Paxlalı tərəvəzlər (*Fabaceae*) (qabıqsız) və onların emalı məhsulları<br><br>0708 10 000 0-dan<br>0708 20 000 0-dan<br>0708 90 000 0-dan<br>0713 10 900 0-dan<br>0713 20 000 0-dan<br>0713 31 000 9-dan<br>0713 32 000 9-dan<br>0713 33 900 0-dan<br>0713 34 000 0-dan<br>0713 35 000 0-dan<br>0713 39 000 9-dan<br>0713 40 000 9-dan<br>0713 50 000 9-dan<br>0713 60 000 0-dan<br>0713 90 000 9-dan<br>1201 90 000 0-dan<br>1202 42 000 0 | Enlixortumlu düyü uzunburunu (*Caulophilus latinasus),* Braziliya dənyeyəni (*Zabrotes subfasciatus*), Araxis dənyeyəni (*Caryedon serratus*), Kallosobruxus cinsinə aid növlər (*Callosobruchus spp.*) və Kapr böcəyindən (*Trogoderma granarium*) azad olmalıdır. |
| **12** | Maniok (*Manihot esculenta*), maranta (*Maranta*), səhləb, yerarmudu və ya topinambur (*Helianthus tuberosus*), şirin kartof və ya batat (*Ipomoea batatas*) və yüksək nişasta və ya inulin tərkibli digər analoji meyvəköklülər və kökyumruları, təzə, soyudulmuş və ya qurudulmuş, bütöv, dilimlənmiş və ya qranullar halında; saqo palmasının özəyi<br><br>0714 10 000 0<br>0714 20 100 0<br>0714 20 900 0<br>0714 90 200 0 | Nizəşəkilli nematod (*Xiphinema rivesi*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*) və Kolumbiya yalançı kök fır nematodundan (*Meloidogyne fallax*) azad olmalıdır. |

| | | |
|---|---|---|
| | 0714 90 900 0 | |
| **13** | Qovun (*Cucumis melo*), qarpız (*Citrullus vulgaris*) və balqabaq (*Cucurbita pepo*)<br><br>0709 93 900 0-dan<br>0807 11 000 0<br>0807 19 000 0 | Şərq yemiş milçəyi *(Bactrocera cucurbitae)*, yemiş milçəyi *(Myiopardalis pardalina)*, qabaq milçəyi (*Dacus ciliatus* ), sarı sarmaşıq (bütün növləri) *(Cuscuta spp.)* və uzun tikanlı senxrus alaq otu toxumlarından *(Cenchrus longispinus)* azad olmalıdır. |
| **14** | Bibər (*Capsicum annum*), təzə və ya soyudulmuş<br><br>0709 60 100 0<br>0709 60 990 0 | Cənubi Amerika yarpaq lağımlayıcısı (*Liriomyza huidobrensis),* qərb çiçək tripsi (*Frankliniella occidentalis*), zebra çip (*Candidatus liberibacter solanacearum*) və pomidor meyvələrinin qonur qırışıqlıq virusundan *(Tomato brown rugose fruit virus)* azad olmalıdır. |
| **15** | Badımcan (*Solanum melongena*) təzə və soyudulmuş<br>0709 30 000 0 | Qarğıdalı yarpaq sovkası *(Spodoptera frugiperda),* qırmızı tor gənəsindən *(Tetranychus evansi)* azad olmalıdır. |
| **16** | Qulançar (*Asparagus*) , təzə və ya soyudulmuş<br>0709 20 000 0 | Misir pambıq sovkası (*Spodoptera littoralis*), qarğıdalı yarpaq sovkası *(Spodoptera frugiperda),* cənub sovkası *(Spodoptera eridania),* qərb çiçək tripsi *(Frankliniella occidentalis)* və pambıq ağqanadlısından *(Bemisia tabaci)* azad olmalıdır. |
| **17** | Digər tərəvəzlər (ispanaq, razyana, ənginar, şüyüd, keşniş, reyhan və nanə)<br>0709 70 000 0<br>0709 91 000 0<br>0709 99 500 0<br>0709 99 900 0 | Qərb çiçək tripsi (*Frankliniella occidentalis*), *Spodoptera spp, Liriomyza spp.,* gövdə nematodu (*Ditylenchus dipsaci*), Kolumbiya kök fır nematodu (*Meloidogyne chitwoodi*), palma tripsi *(Trips palmi)* və pambıq ağqanadlısından (*Bemisia tabaci*) azad olmalıdır. |
| **18** | Göbələklər<br>0709 51 000 0<br>0709 52 000 0<br>0709 53 000 0<br>0709 54 000 0<br>0709 55 000 0<br>0709 56 000 0<br>0709 59 000 0 | *Ditylenchus destructor* - dan azad olmalıdır. |

## 6. Taxıl, dənli paxlalı və yağlı bitkilərin dənləri və onların emal olunmuş məhsullarına qoyulan fitosanitar tələblər

**6.1.** Taxıl, dənli paxlalı və yağlı bitkilərin dənləri və onların emal olunmuş məhsulları çoxillik ambroziya (*Ambrosia psilostachya*), yovşanyarpaqlı ambroziya (*Ambrosia artemisiifolia*), üçdilimli ambroziya (*Ambrosia trifida*), tumurcuqlu kəndalaş (*Iva axillaris*), sürünən kəkrə (çəhrayı) (*Acroptilon repens* ), azçiçəkli senxrus (lövbərli) (*Cenchrus spinifex*), karolina quşüzümü (*Solanum carolinense*), üççiçəkli quşüzümü (*Solanum triflorum*), zolaqyarpaqlı quşüzümü (*Solanum elaeagnifolium*), tükcüklü pişikdili (*Bidens pilosa*), çuxurlu ipomeya (*Ipomoea lacunosa*), tikanlı quşüzümü (*Solanum rostratum*) və uzuntikanlı senxurusdan (*Cenchrus longispinus*) azad olmalıdır.

**6.2.** Taxıl, dənli paxlalı və yağlı bitkilərin dənləri və onların emal olunmuş məhsullarında karantin alaq otlarının toxumları və ya meyvələri aşkar edildikdə həmin partiyaların emal edilməsi, bu mümkün olmadıqda isə geri qaytarılması və ya məhv edilməsi barədə Agentlik tərəfindən müvafiq Qərar qəbul olunur.

**6.3.** Taxıl, dənli paxlalı və yağlı bitkilərin dənləri və onların emal olunmuş məhsullarında *Striga* cinsindən olan alaq otlarının toxumlarına rast gəlindikdə partiyanın geri qaytarılması barədə Agentlik tərəfindən müvafiq Qərar qəbul olunur.

**6.4.** Taxıl, dənli paxlalı və yağlı bitkilərin dənləri və onların emal olunmuş məhsulları yalnız ətrafa dağılmasını istisna edəcək nəqliyyat vasitələrində və ya təzə və hava keçirən qabalaşdırılma materillarında idxal edilə bilər. Bu bəndin tələbləri istehlak üçün nəzərdə tutulan qablaşdırmalarda olan məhsullara şamil edilmir.

**6.5.** Qida, yem və texniki məqsədlər üçün idxal edilən taxıl, dənli paxlalı və yağlı bitkilərin dənlərindən əkin üçün istifadə edilməməlidir.

**6.6.** Taxıl, dənli paxlalı, yağlı bitkilərin dənləri və onların emal edilmiş məhsullarının xüsusi tələbləri cədvəl 3-də qeyd edilmişdir.

**Cədvəl 3**

**Taxıl, dənlı paxlalı və yağlı bitkilərin dənləri və onların emal olunmuş məhsullarına qoyulan xüsusi fitosanitar tələblər**

| № | Karantin nəzarətində olan malın növü (XİF MN üzrə kodla) | Xüsusi fitosanitar karantin tələbləri |
|---|---|---|
| **1** | Taxıl, dənli paxlalı və yağlı bitkilərin dənləri<br>1001 19 000<br>1001 99 000<br>1002 90 000<br>1003 90 000<br>1003 90 000 | Bu tələblərin 6.1 bəndində qeyd olunmuş alaq toxumlarından, o cümlədən Braziliya dənyeyəni (*Zabrotes subfasciatus*), enlixortumlu düyü uzunburunu (*Caulophilus latinasus*), araxis dənyeyəni (*Caryedon serratus*) kapr böcəyi (*Trogoderma granarium*) və Kallosobruxus (*Callosobruchus spp.*) |

| | | |
|---|---|---|
